# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №07 (77) • 20.02.2012

AzadliqRadiosu.az

HRW: **İnsanların evindən çıxarılması «Eurovision»a kölgə salır** səh.2

Misir Mərdanov: **«Orta məktəblərdə 12 illik təhsilə keçiləcək»** səh.4

**Hərbi komissarlıqların ləğvi nəyi dəyişəcək?** səh.6

**Тегеран обвиняет Баку** səh.7

**«Qara siyahı»ya jurnalistləri öldürənlər salınmalıdır»** səh.11

**Xristian və müsəlman ailəsində uşaqlar səhv düşüb** səh.14

## Maraqlı videolar

- Putin müttəhim kürsüsündə
- Milli Parkda plitələr niyə dəyişdirilir?
- Azərbaycan-İran sərhədində problemlər

www.AzadliqRadiosu.az

# Bakıda yeni həbslər dalğası



**İran televiziyasının müxbiri və 20 nəfər Nardaran sakini saxlanılıb** səh.3

## «Azərsu» prezidentinin qohumları su biznesindən necə qazanır?

«Azərsu» ASC-dən bizə dövlət proqramı üzrə işlərə cəlb olunan şirkətlərin az qala hamısı 2011-ci ildə, «Azərsu»na yeni prezident təyin olunandan sonrakı aylarda qeydiyyatdan keçiblər. Onlardan «Sənaye Tikinti-M» MMC-nin və «Hidro-İnşaat Servis» MMC-nin təsisçiləri prezident Qorxmaz Hüseynovun yaxın qohumlarıdır. səh.9-10

Dar düşüncə




**Kürün səviyyəsi sürətlə qalxır** səh.2

**«İqtisad Universitetində tələbə köçürmələrinin qiyməti 35 minə qalxıb»** səh.5

Stratfor: **"Rusiya kəşfiyyatının Azərbaycanda geniş şəbəkəsi var"** səh.12

Əməkdar artist Ədilə Əflaki: **"Somali bizim evimizdədir"** səh.13

# HRW: İnsanların evindən çıxarılması «Eurovision»a kölgə salır

HUMAN RIGHTS WATCH

**Azərbaycan hökuməti «Eurovision-2012» müsabiqəsi keçiriləcək ərazidə sonuncu binaları da sökmək üçün sakinləri məcburi yollarla çıxarmağa başlayıb. Bunu - beynəlxalq "Human Rights Watch" hüquq-müdafiə təşkilatı bildirir. Təşkilatın bəyanatında deyilir ki, Azərbaycan hökuməti Bakı Şəhər İcra Hakimiyyətinin hərəkətlərinin qanuniliyini araşdırmalı, sakinlərə adekvat kompensasiya ödəməlidir.**

Fevralın 15-i səhər Bakı Şəhər İcra Hakimiyyətinin rəsmiləri Aqil Quliyev küçəsi 5 ünvanında yerləşən 9 mərtəbəli binanın sakinlərini qanunsuz olaraq evlərindən çıxarmağa başlayıblar. «Eurovision» müsabiqəsinə ev sahibliyi Azərbaycan hökumətinə Bakını minlərlə turist və milyonlarla tamaşaçıya nümayiş etdirmək imkanı verir», - deyə təşkilatın Avropa və Mərkəzi Asiya üzrə direktoru Hugh Willamson bildirib. H.Willamsonun fikrincə, «hərçənd yüzlərlə sakinin zorla evindən çıxarılması, evlərinin dağıdılması və mülkiyyətindən məhrum olması bu tədbirin keçirilməsinə kölgə salır».

Sakinlər bildiriblər ki, fevral ayından binanın damını söküblər. Söküntü üzüaşağı davam edir. Binanın 9-cu mərtəbəsində yaşayanlar artıq köçüb. Fevralın 15-də 7 və 8-ci mərtəbələrin sakinlərindən köçmələri tələb olunub. Binanın sakinlərindən biri Natalya Əlibəyova deyir ki, Azərbaycan donanmasının kapitanı, 8-ci mərtəbədə yaşayan Rafiq Hüseynovun ailəsinə köçmək üçün günortaya qədər vaxt veriblər: «Oturub ağladıq. Axı bu adam ömrünün yarısını bu ölkəyə həsr edib. İndi onu bayıra atırlar».

Rəsmilər Hüseynova kirayədə qalmaq üçün 300 manat təklif ediblər. Bayraq Meydanı ətrafındakı ərazidəki tikinti işləri Azərbaycan «Eurovision 2011» müsabiqəsində qalib gələndən sonra intensivləşib. 2011-ci ilin mayında bu ərazidə Baku Crystal Hall-un tikintisinə başlanıb. Bakı Şəhər İcra Hakimiyyəti bildirib ki, bina ərazinin genişləndirilməsi məqsədilə sökülür.

**«BU, AZƏRBAYCAN HAKİMİYYƏTİNİN İDDİALI ŞƏHƏRİN GÖZƏLLƏŞDİRİLMƏSİ PROQRAMINA LƏKƏ GƏTİRİB»**

Payızda ərazidəki digər binalar şəhərin mərkəzindən bura yol salmaq məqsədi ilə sökülüb. «Human Rights Watch» Bayraq Meydanındakı məcburi köçürülmə ilə bağlı müsabiqəni keçirən Avropa Yayımları Birliyi ilə əlaqə saxlayıb. AYB müsabiqənin qeyri-siyasi tədbir olduğunu, hökumətin bu söküntü işlərinin mahnı müsabiqəsi ilə əlaqəsi olmadığı ilə bağlı arqumentini əsas gətirərək özünü bu məsələlərdən kənar tutmağa çalışıb.

«Human Rights Watch» bildirir ki, buna baxmayaraq nə Azərbaycan hökuməti, nə Avropa Yayımları Birliyi istəməz ki, mahnı müsabiqəsinə insan hüquqlarının pozulması ilə kölgə düşsün. Ona görə də AYB hökuməti sakinlərin evlərindən köçürülməsi ilə müşayiət olunan kobud insan hüquqları pozuntularına son qoymağa çağırmalıdır. HRW həmçinin AYB-nin üzvü olan milli televiziya şirkətlərini də birliyin bu məsələdə səsini yüksəltməsi üçün təsir etməyə çağırıb.

***Sayta hazırladı:***
***Kəbiran Dilavərli***



# Xədicə İsmayılova mükafat alıb

**AzadlıqRadiosunun əməkdaşı Xədicə İsmayılova Müstəqil media və söz azadlığı üçün fəallığına görə Gerd Buserius adına «Şərqi Avropada azad mətbuat» mükafatına layiq görülüb. 2000-ci ildən «Zeit-Stiftung» fondu Gerd Buserius adına həvəsləndirici mükafatları Şərqi Avropanın keçid dövrü yaşayan ölkələrinin mətbuat, söz azadlığı və liberal vətəndaş cəmiyyəti uğrunda mübarizə aparan jurnalistlərinə təqdim edir.**

2004-cü ildən fond bu mükafatı Norveçin «Azad söz» fondu ilə birgə təqdim edir. Əvvəllər Azərbaycandan bu mükafatı «Turan» agentliyi, «Zerkalo» qəzetinin icmalçısı Rauf Mirqədirov, «Azadlıq» qəzeti, «Bizim yol» qəzetinin müxbiri Natiq Cavadlı, jurnalist yazar Şahvələd Çobanoğlu və Zamin Hacı alıb.

Mükafat mərasimi 24 may 2012-ci ildə Hamburqda keçiriləcək.

# Kür çayının səviyyəsi sürətlə qalxır

**Kür çayının Salyan və Neftçala rayonlarından keçən hissəsində suyun səviyyəsi qalxmaqda davam edir. Bu barədə «APA»ya Neftçala İxtisaslaşdırılmış Mənsəb Hidrometeorologiya Müəssisəsinin direktoru Əkbər Həsənov məlumat verib.**

Onun bildirdiyinə görə, son günlər Kürün Salyan və Neftçala rayonları ərazisindən keçən hissəsində suyun səviyyəsinin artımı müşahidə olunur. Təkcə fevralın əvvəlindən indiyə kimi çayın səviyyəsi Salyan rayonunda 75 santimetr, Neftçalada isə 35 santimetr qalxıb. Çayda suyun qalxmasına səbəb kimi yağıntıların və qarın əriməsi göstərilir. Əkbər Həsənov deyir ki, Kürün səviyyəsi daha 1-1.2 metr qalxarsa, hər iki rayon üçün təhlükə yarana bilər.

**"Qaynar Xətt"** dinləyici şikayətləri əsasında hazırlanan verilişdir. Sizin də şikayətiniz və ya məlumatınız varsa, qaynar xəttə zəng edin. **Telefon 436 77 41.** Bizə zəng edənlər mütləq koordinatlarını (ad, familiyasını və telefonunu) saxlamalıdır. **AzadliqRadiosu.az** saytına daxil olmaqla da verilişlə əlaqə saxlaya bilərsiniz.

Aparıcı Esmira Cavadova.

E-mail: esmer_alda@mail.ru



# Bakıda yeni həbslər

## İran televiziyasının müxbiri və 20 nəfər Nardaran sakini saxlanılıb



Foto: Arxiv

**İranın «Səhər» telekanalının Azərbaycandakı müxbiri Anar Bayramlı saxlanılıb. Müxbirin qardaşı Yaşar Bayramlı AzadlıqRadiosuna bildirib ki, fevralın 17-si axşam saatlarında polis Anar Bayramlını evindən Binəqədi Polis İdarəsinin 4-cü bölməsinə aparıb. Bir qədər sonra isə onlara Anar Bayramlının narkotikə görə saxlanıldığı bildirilib: «Qardaşım gödəkcəsini bölmənin girişində asılqandan asıb içəri keçib. Bir qədər sorğu-sualdan sonra ona narkotik maddəni göstərib deyiblər ki, bu heroindir, sənin pulqabından çıxdı. Qardaşım da deyib ki, o, nəinki narkotikdən, heç siqaret və spirtli içkidən də istifadə etmir, cibindən narkotik maddə çıxa bilməz».**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AzadlıqRadiosuna bu barədə məlumatsız olduqlarını deyiblər. İranın Azərbaycandakı səfirliyindən isə məlumata şərh vermək istəməyiblər. Anar Bayramlının saxlanılması barədə İranın yarı-rəsmi «Fars» agentliyi də xəbər yayıb. Yerli mətbuat «Səhər» televiziyasının Sumqayıtdakı nümayəndəliyinin sürücüsünün də saxlanılması barədə yazsa da, Sumqayıt polisi bunu təsdiqləmir.

**NARDARANDA HƏBSLƏR OLUB**

Nardaran Ağsaqqallar Şurasının sədri Natiq Kərimovun AzadlıqRadiosuna dediyinə görə, fevralın 18-i səhər saatlarında «İslam Həqiqətləri» qəzetinin redaktor müavini Əbülfət Bünyadov da saxlanılıb: «Son bir neçə gündə Nardaran kəndində 20-dən artıq adam tutulub. Onların bəziləri bir müddət sonra sərbəst buraxılıb. 10 nəfər kənd sakini isə hələ içəridədir».

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən deyirlər ki, onlar bu barədə də məlumata malik deyillər.

***Maarif Çingizoğlu***

# Prokuror: «Azərbaycanda yazı yaza bilməyən bələdiyyə sədrləri var»



Baş Prokurorluq

***«Azərbaycanda bələdiyyələrin fəaliyyəti lazımi səviyyədə deyil. Bələdiyyə üzvlərinin özlərinin hüquqları barədə məhdud məlumatları var. Hətta onlara gəlir mənbələrini sadaladıqda bunu təəccüblə qarşılayırlar. Hətta Azərbaycanda adi yazı yaza bilməyən bələdiyyə sədrləri var. Şəxsən özüm bununla rastlaşmışam».***

Bunu Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin əməkdaşı, böyük prokuror Pərvin Quliyev ictimai dinləmədə çıxışında bildirib. P.Quliyev Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin «qaynar xətt»inə daxil olan müraciətlərin böyük hissəsinin bələdiyyələr və yerli icra hakimiyyətləri ilə bağlı olduğunu deyib.

***Apa***

## AzadliqRadiosu.az saytında maraqlı videolar

- **Ruslan Bəşirli üçün sevgi flashmobu**
- **Milli Parkda plitələr niyə dəyişdirilir?**
- **Azərbaycan-İran sərhədində yenidən problem yaranıb**
- **Şüvəlanda kanalizasiya problemi**
- ***Rejissor Əbdül Mahmudbəyov:* "Bunlar şapalaqla üz qızardırlar!"**
- **Qədim Kiş kəndi və Alban məbədi**
- **«Qara siyahı»ya jurnalistləri öldürənlər salınmalıdır»**
- **Putin müttəhim kürsüsündə**

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



**Ermənistanda evsizlərın sayı durmadan artır**




**«İtlər Romney'ə qarşı»**




**Rusiya müxalifəti «Ağ küçələr» adlı avtoyürüş keçirir**

# Gəncə Dövlət Universitetinin keçmiş müəllimi aclıq aksiyası keçirir



Fikrət Hacıyev

*Gəncə Dövlət Universitetinin ümumi fizika kafedrasının baş müəllimi Fikrət Hacıyev fevralın 10-dan aclıq aksiyası keçirir. Artıq 7 gündür ki, o, deməsinə görə, ancaq su qəbul edir. Dərsə gəlməyən tələbələrə qaib yazdığı üçün işdən azad edildiyini bildirən Fikrət Hacıyev aksiyanı yeganə çıxış yolu sayır: «Fevralın 10-dan aclıq aksiyasına başlamışam. Mən dekabrın 14-də müəllimlik yerimə gizli səsvermədən keçmədiyimə etiraz edirəm. Məni işdən çıxartdılar. Məhkəməyə müraciət etsəm də, hamı məhkəmənin də qərəzli olduğunu gördü. Tələbim işimə bərpa olunmaq və məni bu əzaba salan məmurların cəzalandırılmasıdır».*

**«UNİVERSİTETDƏ ORTA SAVADI BELƏ OLMAYAN ÇOXLU SAYDA MÜƏLLİM VAR»**

Fikrət Hacıyev işindən uzaqlaşdırılmasını sifariş hesab edir: «Məhkəmə zalına şahid kimi dəvət olunan kafedra müdirim Zakir Zeynalov qohumlarıma açıqca dedi ki, bu, yuxarıdan olan sifarişdir. Tapşırıqla məni işdən azad ediblər. Universitetdə orta savadı belə olmayan çoxlu sayda müəllim var. Nədənsə onları heç kim qovmur. Universiteti fərqlənmə ilə bitirmişəm. Müharibə veteranıyam».

7 gündür ki, aclıq aksiyası keçirən müəllimdə halsızlıq, başgicəllənmələri var. Bununla belə o, özünü ümumən yaxşı hiss etdiyini deyir:

**«52 YAŞINDA YENİ İŞ YERİ TAPMAQ MÜMKÜN DEYİL»**

«Uzunmüddətli aclıq aksiyasını davam etdirə biləcəyimi düşünürəm. Əlacsızlıqdansa bu, yaxşıdır. Onsuz da çıxış yolum yoxdur. Maaşımı əlimdən alıblar. 52 yaşında yeni iş yeri tapmaq mümkün deyil. Müharibə veteranı kimi 30 manat alırdım. Allah prezidentimizin canını sağ eləsin. Artırdı 33 manat elədi. Bu, işıqpulu, supulunu görür. Aclıq keçirmək də mənim təşəbbüsüm deyil. Dövlətin təşəbbüsüdür ki, ay müəllim, acından öl».

Təcili Tibbi Yardım Stansiyasının həkimi Siyavuş Ağayev isə deyir ki, Fikrət Hacıyevin təzyiq və ürəkdöyünmələri normaldır: «Ola bilər, aclıqla əlaqəli ümumi halsızlıq var. Amma artıq mütəmadi yoxlanılacaq...».

Baş müəllim bu vəziyyətə düşməsində kafedra müdiri Zakir Zeynalovu da günahlandırır. Zakir Zeynalov isə gizli səsvermənin nəticələrinə görə heç kimin onu günahlandırmağa haqqı olmadığını deyir:

**«UNİVERSİTETİN KAFEDRA MÜDİRİ DEYƏRMİ Kİ...»**

«Əsaslandırılmış rəydə də yazmışam ki, dərsləri qənaətbəxşdir və növbəti 5 ildə dərs deyə bilər. Mən səsverməyə buraxmışam. Ağıllı şəxs, universitetin kafedra müdiri deyərmi ki, yuxarıdan deyiblər, Fikrət Hacıyevi qərəzli çıxarıblar. Onların bütün danışıqları uydurmadır. Şuranın 16 üzvü var, onlardan 12-si səs verməyib. Bu da gizlidir».

Fikrət Hacıyev 18 il Gəncə Dövlət Universitetində çalışıb. İddia edir ki, onu uzun müddət dərsə gəlməyən tələbələrə qaib yazdığı və rüşvət almadığı üçün işdən çıxarıblar.

***Gülnur Raqifqızı***

# Misir Mərdanov: «Orta məktəblərdə 12 illik təhsilə keçiləcək»

*«Hələ «Təhsil haqqında» qanun qəbul olunarkən, Təhsil Nazirliyi olaraq biz ciddi-cəhdlə çalışdıq ki, orta məktəblərdə 12 illik təhsilə keçilsin. Təəssüf ki, o zaman bu, baş tutmadı. Amma qanunun qəbulundan bir müddət keçəndən sonra hamı görür ki, bir çox ölkələrdə – dünya ölkələrinin təxminən 90 faizində məhz 12 illik təhsil tətbiq olunur. Ona görə də yəqin ki, bizim də qanunvericilikdə dəyişiklik olunacaq və 12 illik təhsilə keçməklə bağlı qərar qəbul ediləcək».*

Bunu Təhsil naziri Misir Mərdanov deyib. Nazir bildirib ki, 12 illik təhsilə keçilərsə, 10 illik təhsil icbari olacaq: «Qalan 2 ildə isə şagirdlər əsasən ali məktəblərə gedərkən verəcəkləri qəbul imtahanları üzrə hazırlaşacaqlar. Bununla həmçinin Azərbaycan cəmiyyətində çox ciddi problem olan repetitorluğun qarşısına müəyyən bir sədd çəkiləcək».

*Apa*

# AzadlıqFM: «Eurovision» ehtirasları «Facebook»dan Milli Məclisə yayılır

## Azadlıq Facebook Məkanında verilişinin mövzusu bu məsələyə həsr olunub. 17 fevral proqramının aparıcısı Səadət Akifqızıdır.




Bu maraqlı verilişin vaxtı dəyişdi: indi hər həftənin cümə günü 14:00-15:00 arasında Facebook məkanında baş verən maraqlı olayların müzakirəsinə qa qatıla bilərsiniz. Facebookda xüsusi fəallığı ilə fərqlənən şəxslər verilişə dəvət edilir. Veriliş eyni vaxtda AzadlıqRadiosunun Facebook səhifəsində də yayımlanır ki, Facebook istifadəçiləri canlı olaraq şərhlər yaza bilsinlər. Azadlıq FM-in arxiv səhifəsi də var.

# «İqtisad Universitetində tələbə köçürmələrinin qiyməti 30-35 minə qalxıb»

**İqtisad Universiteti rektorunun sabiq müşaviri Bədirxan Musayev rektor Şəmsəddin Hacıyevi korrupsiyada ittiham edir. Professor iddia edir ki, hər il universitetin Dərbənd filialına testdən kənar 600-700 tələbə qəbul olunur. Bir il sonra böyük pullar hesabına həmin tələbələr İqtisad Universitetinə köçürülür. Sabiq müşavir deyir ki, əslində tələbələr Dərbəndə getmir, elə hər şey Bakıda həll edilir: «Burda da guya 1 il oxudurlar. Sonra hamısını «prestijni» ixtisaslara, beynəlxalq iqtisadi münasibətlər, maliyyə-kredit fakültələrinə, özü də 600-700 bal toplayan tələbələrlə bir qrupa salırlar».**

O, tələbə köçürmələrinin konkret məbləğini də açıqlayır: «Şəmsəddin Hacıyev təzə rektor olanda tələbə köçürmələri 10 min manat idi, indi qiymətlər qalxıb 30-35 min manata. Düzdür, bu il gündüzə qəbul yoxdur, qiyabiyə var, onu da bu formada həll edəcəklər. Dərbənd filialına yalnız «zaçotnik»lər gedir. Qiyabi təhsillin qiyməti isə indi 10-15 min manat arasıdır».

**199 TƏLƏBƏNİN ALDIĞI «0» QİYMƏT**

Həmin tələbələrin biliyinə gəldikdə, Bədirxan Musayev burda da ciddi problemlərin olduğunu söyləyir: «Çünki mən 119 nəfər bir, 80 nəfər də digər fakültədə keçirilən imtahanlara nəzarət etdim, rüşvətə, xahişə imkan vermədim. 7 imtahan verdilər, hamısında bilikləri «sıfır»a bərabər oldu. Elə tələbələr oldu ki, 5-6 fəndən «2» aldılar".

Bədirxan Musayev işdən çıxarılana qədər rektorun müşaviri (2000-2011) və iqtisadi kibernetika kafedrasının müdiri olub. O, ötən ilin noyabrında əmək funksiyasını yerinə yetirə bilməməsi və xəstə olması səbəbi ilə universitetdən çıxarılıb. Amma Bədirxan Musayev işdən çıxarılmasını universitetdəki korrupsiya halları ilə bağlı müxtəlif dövlət qurumlarına etdiyi müraciətlərlə bağlayır.



Bədirxan Musayev

**İQTİSAD UNİVERSİTETİ SABİQ MÜŞAVİRİ BÖHTAN ATMAQDA GÜNAHLANDIRIR**

Sabiq müşavir üzləşdiyi problem və İqtisad Universitetindəki korrupsiya halları ilə bağlı daha bir neçə dövlət qurumuna müraciət etdiyini, amma onlardan yalnız Daxili İşlər Nazirliyindən cavab aldığını bildirir. Deyir həmin cavabda qeyd olunur ki, şikayət baxılması üçün Baş Prokurorluq yanında Korrupsiya İdarəsinə göndərilib.

İqtisad Universitetində isə hesab edirlər ki, Bədirxan Musayevin dedikləri şər- böhtan olub və bu da məhkəmədə sübut olunub. Məhkəmə universitetin Musayevlə bağlı iddiasını təmin edib və o, 400 manat cərimə olunub. Ancaq sabiq müşavir də öz növbəsində İqtisad Universitetini məhkəməyə verib. Rektorun ictimaiyyətlə əlaqələr üzrə köməkçisi Zəfər Bayramov Bədirxan Musayevi universitetə şər atmaqda günahlandırır: «Bədirxan Musayev bütün fəaliyyəti boyu bu işlə məşğul olub. Onun əməli, fəaliyyəti bundan ibarətdir. Necə oldu ki, 2004-də Şəmsəddin Hacıyev rektor seçiləndən bəri elmi şuranın iclaslarında onun haqqında yüksək fikirlər səsləndirir, amma 1 ay içində fikirləri, mövqeyi dəyişdi, hamı burda oldu rüşvətxor. Universitetdə bir dənə ideal adam bu oldu».

**ŞİKAYƏT ARAŞDIRILMAQ ÜÇÜN UNİVERSİTETİN ÖZÜNƏ GÖNDƏRİLİB**

Təhsil Nazirliyi ali və orta ixtisas təhsili şöbəsindən AzadlıqRadiosuna verilən məlumata görə, Bədirxan Musayevin nazirliyə ünvanladığı müraciətə baxılıb və araşdırılması üçün yenidən İqtisad Universitetinə göndərilib.

***Maarif Çingizoğlu***

# Övladını xaricə oxumağa hara göndərməli?



**Quacquarelli Symonds təşkilatı ilk dəfədir ki, dünyada ən yaxşı tələbə şəhərlərinin reytinqini hazırlayıb.**

Reytinqdə Avropa şəhərləri birinci yerləri tuturlar.

Dünyanın ən yaxşı tələbə şəhəri isə Paris hesab olunub. 50 ən yaxşı tələbə şəhəri arasında ikinci yerdə Londondur. Moskva 37-ci yerdədir. Quacquarelli Symonds-un hesabatı hazırlayan tədqiqatçısı Ben Sowter izah edir ki, universitetlərin sayına və keyfiyyətinə görə, London Parisdən heç də geri qalmır. Ancaq Parisə birinci yer ona görə verilib ki, Parisdə təhsil və həyat daha ucuzdur.

Fərq isə doğrudan da böyükdür. Avropa Birliyindən olmayan tələbə Londonda təhsilə ildə 20 min funt-sterlinq verməlidir.

Parisdə isə bu, 20 dəfə azdır. Tələbələr üçün ən yaxşı şəhərlər dünya səviyyəli universitetlərin olması və sayı, təhsil haqqı, həyatın keyfiyyəti kimi indikatorlar əsasında müəyyən olunub. Həyatın keyfiyyətinə isə cinayətkarlığın səviyyəsi, normal yaşamağa lazım olan pul və s. daxildir.

Siyahıda ilk 10-luq isə belədir:

1. Paris (Fransa)
2. London (Britaniya)
3. Boston (ABŞ)
4. Melburn (Avstraliya)
5. Vyana (Avstriya)
6. Sidney (Avstraliya)
7. Sürix (İsveçrə)
8. Berlin (Almaniya)
9. Dublin (İrlandiya)
10. Monreal (Kanada)

# Azərbaycan qatarları Moskvaya niyə buraxılmır?



Foto: Arxiv

*Azərbaycan qatarları köhnə olduğu üçün Moskvaya buraxılmır. Artıq Bakı–Moskva qatarı yola salınmır. 300-ə yaxın adam işsiz qalıb. Bakı-Moskva qatarının bələdçilərindən Qismət Əliyev hesab edir ki, əslində günah Azərbaycan tərəfindədir. Deyir ötən il Rusiyada gəmi batandan sonra bu ölkənin baş naziri köhnə sərnişindaşıma nəqliyyatlarının ölkəyə buraxılmaması barədə tapşırıq vermişdi. İndi də həmin vaxt gəlib çatdı, ruslar dediklərini etdilər: «Bilmirik bu Nəqliyyat Nazirliyi nə etmək istəyir? Bir tərəfdən taksilərin çörəyini kəsir, indi də bizim. Nə edək biz bu ölkədə? Bir milyon iş yeri açdıqlarını deyirlər. Birini göstərsinlər, gedim orada işləyim».*

Qatarların köhnə olması ucbatından Azərbaycan indiyədək bir çox reysləri itirib və itirməkdədir...

**«HEÇ BİR İXTİSAR OLMAYACAQ»**

Dövlət Dəmiryolu İdarəsinin Sərnişindaşıma Departamentinin rəis müavini Mədət Şıxəmirov deyir ki, Bakı-Moskva qatarının cədvəl üzrə hərəkəti may ayından bərpa olunacaq. Vaqonları təmirə göndəriblər. Onların geri qaytarılmasını gözləyirlər. İşçilər isə o vaxtadək yerli qatarlarda işlə təmin ediləcəklər: «Bakı-Moskva reysi bərpa olunanda isə hamısı öz işlərinə qaytarılacaq».

**SÜRƏT QATARI DA KÖHNƏDİR?**

Vətəndaşların Əmək Hüquqlarının Müdafiə Liqasının sədri Sahib Məmmədov deyir ki, heç bir MDB ölkəsində bu vəziyyətdə qatarlar yoxdur: «Bu, Nəqliyyat Nazirliyi ilə Dəmiryol İdarəsinin məsuliyyətsizliyinin nəticəsidir. Azərbaycanda bir dənə də yeni qatar yoxdur. Bu yaxınlarda Gəncə reysinə bir sürət qatarı çıxardıblar, o da köhnədir. Haradasa təmir etdirib gətiriblər. Necə ki, ordan-burdan tullantı avtobuslar gətirirlər ölkəyə, qatarlar da elə vəziyyətdədir. Bu, nəqliyyat sistemində baş verən özbaşınalığın nəticəsidir».

**VAQON PARKI YENİLƏNİR**

Nəqliyyat Nazirliyinin sözçüsü Namiq Həsənov isə deyir ki, son illər xeyli təzə lokomotivlər, vaqonlar alınır: «Avropanın müxtəlif ölkələri – Çexiya, İspaniya ilə ən müasir vaqonların alınması ilə bağlı danışıqlar aparılıb. Dövlət dəmiryolunda bu işlərin təkmilləşdirilməsi ilə bağlı 2014-cü ilə qədər dövlət proqramı da var. Yeni standartlara uyğunlaşma gedir. Gələn il Bakı-Tbilisi-Qars xətti istismara verilir. O nöqteyi-nəzərdən bütün vaqon parkı da yenilənir».

***İlqar Rəsul***

# Hərbi komissarlıqların ləğvi nəyi dəyişəcək?


Emin Həsənli

**Bundan sonra hərbi komissarlıqların işini Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti həyata keçirəcək. Prezident İlham Əliyev bu barədə fevralın 13-də fərman imzalayıb. Fərmana əsasən, Müdafiə Nazirliyinin tabeliyində olan respublika, şəhər və rayon hərbi komissarlıqları ləğv edilir və onların əsasında yeni dövlət xidməti yaradılır. Prezidentin başqa bir sərəncamı ilə Dövlət Miqrasiya Xidmətinin rəisi Arzu Rəhimov yeni Xidmətə rəis təyin edilib.**

**«SOVET DÖVRÜNDƏN QALAN KOMİSSARLIQLARIN LƏĞVİ ZƏRURİ İDİ»**

«Ordunun Dostları Mətbuat Klubu»nun sədri Emin Həsənli hesab edir ki, yeni Dövlət Xidmətinin yaradılması səfərbərliyin və çağırışın təşkilində müsbət dəyişikliklərə səbəb olacaq: «Komissarlıqlar sovet dövründən qalmışdı və onu ləğv edib yeni xidmət yaratmaq zəruri idi. Bundan sonra indiyə qədər yol verilmiş qüsurlar da aradan götürüləcək. Bu, ümumilikdə ölkədə ordu quruculuğuna müsbət təsir edəcək».

**«DƏYİŞƏN ADLA OLACAQ»**

Hərbi ekspert Üzeyir Cəfərov isə hesab edir ki, bu yenilik korrupsiya və çatışmazlıqların aradan qaldırılmasına hesablanıbsa, bunu köhnə sistemdə də bəzi islahatlar aparmaqla etmək olardı, qurumların adını dəyişməyə ehtiyac yox idi. Ekspert bu işin Müdafiə Nazirliyindən alınmasını da müsbət qarşılamır.

**YENİ XİDMƏTİN YARADILMASINI ZƏRURİ EDƏN 2 AMİL**

«Doktrina» Hərbi Araşdırmalar Mərkəzinin rəhbəri Cəsur Sümərinli isə deyir ki, komissarlıqların ləğvi, bunun əvəzində yeni mülki qurumun yaradılması əslində ordunun NATO standartlarına uyğunlaşdırılması ilə bağlıdır: «Bu qurumun yaradılmasında əsas məqsədlərdən biri çağırış sistemini hərbi nəzarətdən çıxarıb daha çox mülki bir struktura çevirməkdir».

Ekspert deyir ki, Gürcüstanda da komissarlıqlar ləğv olunub, Türkiyədə də analoji qurum fəaliyyət göstərir.

**«NÖVBƏTİ 2 İLDƏ HƏRBİ ÇAĞIRIŞ SİSTEMİNDƏ KORRUPSİYA OLACAĞINA İNANMIRAM»**

Cəsur Sümərinli yeni yaradılan Xidməti daha çox Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına (TQDK) bənzədir: «TQDK yaradılandan sonra tələbə qəbulunda mövcud olan rüşvət və korrupsiyanın xeyli məhdudlaşdırılması prosesi baş verdi. Xidmətin yaradılmasını da mən bununla eyniləşdirirəm».


Cəsur Sümərinli

Müdafiə Nazirliyi isə prezident fərmanını şərh etmir. Nazirlikdə komissarlıqların ləğvi və yeni xidmətin yaradılmasını müsbət addım adlandırırlar.

***Maarif Çingizoğlu***

# Почему Азербайджан – не Египет

Комментарий президента Азербайджана к вопросу, который был задан на Мюнхенской конференции по безопасности председателю «Allianz»а Майклу Дикманну и касался Азербайджана, вызвал повышенный интерес и дискуссии. Напомню, Ильхам Алиев заявил, что в вопросе «фактически предпринимается попытка представить ситуацию в Азербайджане такой, как в Египте».

Экономист Натиг Джафарли прокомментировал высказывание президента, и я согласен с доводами эксперта – аргументация президента не выдерживает критики. Тем не менее, считаю необходимым отметить, что ситуации вАзербайджане и в Египте действительно разнятся очень сильно, хотя президент Алиев в своем выступлении не сказал ни слова о причинах этого.

Вообще, в ответе-комментарии Ильхама Алиева интересна политическая составляющая, так как вопросе имелась формулировка «Азербайджан, который по своей политической структуре очень похож на Египет» Мубарака. Политическая структура – это выборы, это права человека, свобода собраний, свобода печати и слова, верховенство закона. Какие у нас проводились президентские и парламентские выборы – хорошо известно. Какие оппозиционные партии представлены в азербайджанском парламенте, тоже известно хорошо. В этом плане Азербайджан и Египет, возможно, и схожи. Но они очень сильно отличаются в другом, что весьма сильно влияет на «политическую структуру» и ситуацию.

В отличие от Египта, в Азербайджане очень мало действительно верующих мусульман. Растущее количество посещающих пятничные проповеди и намаз, постящихся, совершающих хадж, раздающих фитре и зякат, даже строящих мечети ни о чем не говорит. Здесь много показухи и моды. В большинство своем эти «мусульмане» и «Хаджи» хлещут водку, без стеснения врут и жрут «харам», воруют, берут взятки и так далее. Почему бы и не построить мечеть на 10% от наворованного?

В отличие от Египта, в Азербайджане нет никакого уважения к собственности, что тоже понятно в постсоветской стране, где практически любая значительная собственность, кроме жилья, была уворована у государства. Люди это знают и коррупционные «уводы» собственности никого особо не волнуют, кроме потерпевших.


Протестанты на площади Тахрир, 2011

В отличие от Азербайджана, в Египте, Тунисе и так далее, никогда не было репрессий советско-сталинского масштаба, в том числе, интеллигенции, духовенства, буржуазии, дворянства. Репрессии в сочетании с фальсификациями в сфере истории, лингвистики, литературы, две реформы алфавита, изменение самоназвания народа привели к значительной интеллектуальной деградации, эрозии национального самосознания, падению уровня общественного сознания, и как следствие - политической культуры и активности.

В отличие от Азербайджана, в Египте, Тунисе среднее и высшее образование никогда не было столь плачевным, а множество людей с дипломами - столь невежественными. Эти 4 главных фактора и определяют ситуацию в Азербайджане, делая ее отличной от Египта.

***Чингиз Султансой***

# Тегеран обвиняет Баку


Мустафа Ахмади Ровшан

*Власти Ирана обвинили Азербайджан в причастности к убийству иранского ученого-ядерщика Мустафы Ахмади Ровшана. Сообщается, что в воскресенье посол Азербайджана в Иране Джаваншир Ахундов был вызван в министерство иностранных дел Ирана, где ему были высказаны обвинения в том, что "Баку оказал содействие израильским спецслужбам в организации убийства ученого".*

Мустафа Ахмади Ровшан погиб в Тегеране 11 января этого года в результате взрыва бомбы, которую два неизвестных мотоциклиста прикрепили к его автомобилю. Помимо Израиля, Иран обвинил в причастности к убийству Ровшана США. Обе страны отвергли эти обвинения.

"Азербайджан расценивает ноту МИД Ирана как ответ на ноту, представленную ранее иранской стороне официальным Баку. Информация, которая содержится в ноте, не соответствует действительности - это своего рода клевета. Азербайджан - страна, которая сама страдает от террора", - заявил официальный представитель Министерства иностранных дел Азербайджана Эльман Абдуллаев, передает Trend.

По его словам, Азербайджан никогда не позволит использовать свою территорию для пособничества терроризму. "К сожалению, эта ситуация стала негативным моментом в ирано-азербайджанских отношениях", - сказал представитель МИД Азербайджана. По его словам, Азербайджан выступает "за добрососедские отношения" с Ираном.

**На сайте РадиоАзадлыг - radioazadlyg.org:**

- Представленный Обамой бюджет - сенсация
- Турецких разведчиков освободили от ответственности
- Президент Германии подал в отставку
- Сирия: конституция опаздывает
- Горбачев: что теперь делать Путину?
- Почему Гегелю не нравился Восток?
- Что показал всем снег в Баку

# "İran hücum etsə, Azərbaycanı heç kəs qurtarmayacaq"

*Fevralın 12-də İran Azərbaycana nota verərək, Bakını nüvə alimlərinin ölümündə əli olan İsrail agentlərinə şərait yaratmaqda ittiham elədi. 2 gün sonra da Gürcüstan paytaxtı Tbilisi və HİndistaN paytaxtı New-Dehlidə İsrail səfirliyinin əməkdaşlarına terror hücumu oldu. Vaşinqtondakı Amerika Xarici Siyasət Şurasından keçmiş diplomat Wayne Merry baş verənləri AzadlıqRadiosundan Brian Whitmore-a şərh edib. Merry deyir ki, "əllərində əsas olsa da, olmasa da, iranlılar inanırlar ki, nüvə alimlərinin ölümündə İsrailin əli var. Onların qonşuluğunda İsraillə ən yaxın münasibətləri olan ölkə Azərbaycan olduğundan, onlar İsrail agentlərinin də Azərbaycan ərazisindən İrana qarşı casus fəaliyyəti üçün istifadə edildiyini düşünürlər. Buna cavab olaraq iranlılar əlləri çatan ölkələrdə İsrailə qarşı nə isə etməyə çalışırlar. Azərbaycan və Gürcüstanda İsrailə qarşı üstü açılan terror cəhdləri də bununla bağlı ola bilər".*


Wayne Merry

**"İLHAM ƏLİYEV ATASINDAN NƏSƏ ÖYRƏNİBSƏ, BİLMƏLİDİR Kİ...."**

"Bu durumda özəlliklə Azərbaycan lideri İlham Əliyevin xarici siyasət məsələlərində - Amerika, Rusiya, İran, Türkiyə və İsraillə münasibətlərdə diqqətli olması lazımdır. Əgər atasından bir şey öyrənibsə, bilməlidir ki, bu ölkələrdən heç birinin çətin ayaqda Azərbaycana real yardım etmək öhdəliyi yoxdur. Hətta türklərin də Azərbaycanla səmimi münasibətləri yoxdur. Azərbaycan dünyanın çox təhlükəli bir yerində, çox tənha bir vəziyyətdədir. Ona görə də xarici münasibətlərdə ehtiyatlı, balanslı siyasət müstəqllliyi qorumağın yeganə yoludur".

**"İRANA ZƏRBƏ VURMAĞA YOL VERSƏ, AZƏRBAYCANI KİMSƏ QURTARMAZ"**

İnanmıram ki, Azərbaycan hər hansı şəkildə İsrailə qəfil zərbə qüvvələrini - təyyarələrini burada yerləşdirməyə imkan versin. Birincisi, onsuz da iranlılar şimaldan təhlükəni gözləyirlər. İkincisi də, Azərbaycan tərəfindən hansısa ölkəyə İrana zərbə vurmaq imkanı vermək elə İrana müharibə elan etmək kimi bir şeydir. İranlılar da Bakıdakı rejimə qarşı ciddi cavab vermək istəsə, kim gəlib Azərbaycanı xilas edəcək? Üstəlik, Azərbaycanın Xəzərdə çox vacib yataqları var. İranlıların heç müharibə etməyə ehtiyacları yoxdur. Sadəcə, bu yataqlara dənizdən hücum eləsələr, Azərbaycan iqtisadiyyatına çox ağır zərbə vurmuş olacaqlar".

***İlkin Məmmədov***

# Azərbaycanın xarici siyasətində balans limiti tükənirmi?



Zərdüşt Əlizadə

İranla münasibətlərin pisləşməsi fonunda Azərbaycanın NATO ilə regional məsələlər barədə danışıqlar aparması siyasi dairələrdə müzakirə obyektinə çevrilib. Azərbaycanın balanslı xarici siyasət aparması limitinin tükəndiyini düşünənlər də var, əksini izah edənlər də. Zərdüşt Əlizadə qeyd edir ki, Azərbaycanın əsas ticarət tərəfdaşı Qərbdir. Nefti Qərb şirkətləri çıxardır, onlar da alır: «Bizim oliqarxların pulları Qərb banklarındadır. İstirahətə, müalicəyə İrana yox, Qərbə gedirlər. Yəni bunların pulları Şərqdən çıxır, amma gözləri Qərbdədir. Bu baxımdan əvvəl də balans olmayıb».

Politoloq Zərdüşt Əlizadənin, deputat Zahid Orucun, Azərbaycan Atlantik Əməkdaşlıq Assosiasiyasının rəhbəri Sülhəddin Əkbərin qatıldığı müzakirəyə AzadliqRadiosu.az saytından qulaq asmaq olar.

***İlqar Rəsul***



NATO-nun Baş katibi Andres Fogh Rasmussen və Azərbaycan prezidenti İlham Əliyev Brüsseldə birgə mətbuat konfransında. 15 fevralı 2012

# İlham Əliyev NATO-ya Azərbaycanın regional narahatlıqlarını çatdırıb

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 15-də Brüsseldə NATO-nun Baş katibi Anders Fogh Rasmussenlə görüşüb. Görüşdən sonra keçirilən mətbuat konfransında Rasmussen deyib ki, NATO tərəfdaş ölkələri ilə məsləhətləşmələrə böyük önəm verir və bu görüş də həmin qəbildən olub. Rasmussenin sözlərinə görə, Azərbaycan və NATO bir çox ümumi dəyərləri bölüşür, müxtəlif sahələrdə əməkdaşlıq edir: "Biz NATO-nun Əfqanıstandakı əməliyyatlarına verdiyi dəstəyə görə Azərbaycana minnətdarıq. Və Azərbaycanla əməkdaşlığı genişləndirmək üçün ötən il imzalanan Fəaliyyət Planı üzrə də işlərin gedişindən məmnunuq".*

Rasmussen bildirib ki, İlham Əliyevlə görüşdə əməkdaşlıq məsələlərini, narahatlıq doğuran regional və beynəlxalq məsələləri müzakirə ediblər: "NATO olaraq tərəfdaşlarımızı narahat edən məsələləri nəzərə almaq bizim öhdəliyimizdir".

Prezident İlham Əliyev də bildirib ki, Azərbaycan NATO ilə əməkdaşlığa və inteqrasiyaya böyük önəm verir: "Biz silahlı qüvvələrimizi NATO standartlarına uyğunlaşdırmaq üçün addımlar atırıq və bütün sahələr üzrə - istər NATO-nun Əfqanıstandakı əməliyyatlarına dəstək vermək, istərsə də inteqrasiya sahəsində tərəfdaşlığımızı davam etdirməkdə maraqlıyıq".

İlham Əliyev deyib ki, görüşdə Dağlıq Qarabağ münaqişəsi də müzakirə edilib.

***İlkin Məmmədov***

# «Azərsu» prezidentinin qohumları su biznesindən necə qazanır?


Şüvəlan qəsəbəsinin küçələri

**KASIB MƏHƏLLƏLƏRƏ GEDİB ÇIXMAYAN DÖVLƏT PROQRAMI**

Biz Şüvəlana gedəndə, ötən axşamdan yağan sulu qarı nəzərə almasaq, elə bir yağıntı olmamışdı. Buna baxmayaraq, ara küçələrin bəzilərində artıq qayıq sürmək olardı. Yerli sakinlərin dediyinə görə, güclü yağışlardan sonra bu küçələr, ümumiyyətlə, keçilməz olur. Şüvəlanda ötən il bir neçə küçəyə kanalizasiya xətləri çəkilsə də, söhbətləşdiyimiz sakinlərin əksəriyyəti «2011-2013-cü illərdə Bakı və qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nın onların küçəsinə gəlib çıxmadığını, pulların işə deyil, şəxsi ciblərə getdiyini deyirdi: «Bura kasıb məhəllədir, ona görə çəkmirlər. Əsas yerlərə çəkiblər, gözdən pərdə asmaq üçün», - Şüvəlan sakini Fərman kişi belə deyir.

Fərman kişinin ehtimallarını sənədlər də təsdiqləyir. Su təchizatı və kanalizasiya sistemlərinin yaradılmasına məsul olan «Azərsu» Açıq Səhmdar Cəmiyyəti tikinti-quraşdırma işlərinə cəlb etdiyi özəl şirkətləri tenderlə yox, sorğu ilə seçir. Seçdiyi podratçılar arasında isə eləsinə rast gəldik ki, onlar da «Azərsu» ASC-nin prezidenti Qorxmaz Hüseynovun qohumları tərəfindən yaradılıb.

**«ŞÜVƏLANDA İŞLƏR ÖTƏN İLDƏN BAŞLAYIB»**

Bunu Şüvəlan qəsəbə icra nümayəndəsi Baləli Əliyev deyir və əlavə edir ki, kanalizasiya idarəsi 2013-cü iləcən bütün küçələrə kanalizasiya çəkiləcəyinə söz verib. Bizi əmin edir ki, bundan əvvəlki dövlət proqramlarında Şüvəlanda kanalizasiya sistemi üçün heç bir iş nəzərdə tutulmayıb: «Ötən il bəzi küçələrə kanalizasiya xətləri çəkilib, ancaq su təchizatı üçün hələlik heç bir iş görülməyib. Planda var ki, su anbarı qazılandan sonra su xətti də çəkiləcək».

Görünür Baləli Əliyevin «2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»ndan xəbəri yoxdur. Bu proqramda yazılıb ki, 2007-ci ildə Şüvəlanda 4 milyon manatlıq kanalizasiya təmizləyici qurğu tikilib. 2006-2011-ci illər arası qəsəbədə su və kanalizasiya sistemi ilə bağlı müxtəlif işlərin görülməsinə isə Nazirlər Kabinetinin sərəncamları ilə 14 milyon manatdan çox vəsait ayrılıb.

Bəlkə Dövlət-«Azərsu»-Podratçı zəncirinin hansısa həlqəsində bu 14 milyon manat, sadəcə olaraq, mənimsənilir? Bunu araşdırmaq üçün «Azərsu» ASC-yə müraciət etdik.

**TENDERSİZ SEÇİLƏN PODRATÇI ŞİRKƏTLƏR**

«Azərsu» ASC-dən bizə dövlət proqramı üzrə işlərə cəlb olunan şirkətlərin adlarını verdilər. Məlum oldu ki, bu şirkətləri tender yox, sorğu əsasında seçiblər. Bunu da belə izah edirlər ki, tenderə vaxt itirməmək üçün hökumətə müraciət edib podratçılarla birbaşa müqavilələr bağlamağa icazə istəyiblər. Əks halda, dövlət proqramını vaxtında və tam həcmdə başa çatdırmaqda problem ola biləcəyini yazıblar. Nazirlər Kabinetinin 22 avqust 2011-ci il tarixli sərəncamı ilə «Azərsu»na icazə verilib ki, «müvafiq sahədə təcrübəsi olan şirkətlərlə danışıqlar əsasında seçilən layihəçi və podratçı təşkilatlarla birbaşa müqavilə bağlasın».

«Satınalmalar haqqında» qanunda yazılıb ki, 50000 manatdan yuxarı bütün işlər üçün tender elan olunmalıdır, tenderdə iştirak edən şirkətlərin ən azı 3 il iş təcrübəsi olmalıdır. Qanunvericilik Nazirlər Kabinetinin xüsusi hallarda belə sərəncamlar vermək hüququnu tanısa da, hüquqşünaslar bu prosesdə şəffaflığı son dərəcə vacib sayırlar. İqtisadçılar isə deyirlər ki, xüsusilə dövlət proqramlarında belə hallar əsaslandırılmalıdır.

**«ŞİRKƏT LAZIM İDİ, YARATDIQ»**

Diqqətimizi bir fakt da cəlb etdi ki, «Azərsu»nun seçdiyi podratçıların az qala hamısı 2011-ci ildə, «Azərsu»na yeni prezident təyin olunandan sonrakı aylarda qeydiyyatdan keçiblər. 3 illik minimum iş tələbinə uyğun gələn ancaq «Tikinti-Təmir ANKZ-4» (2002) ASC və «Sənaye-Tikinti M»(2003) idi. Lakin birinci şirkətin nə təsisçilərini tapa bildik, nə də ofisini. Eyni sözləri «Mühəndis Tikinti Layihə» MMC (2011) barədə də demək olar.

«Azərsu»nun seçdiyi digər şirkətlərin heç biri qeydiyyat sənədlərində göstərilən ünvanlarda fəaliyyət göstərmir. Üstəlik, həmin hüquqi ünvanlarda bəzi hallarda 10-a yaxın başqa şirkət də qeydiyyatdadır. Belə ünvanlardan birinin sahibi deyir ki, hüquqşünasdır: «Şirkət lazım idi, sifariş verdilər, mən də yaradıb təhvil verdim. Həmin şirkətlərlə başqa heç bir əlaqəm yoxdur».


Qorxmaz Hüseynov

**«AZƏRSU» PREZİDENTİNİN QOHUMLARI**

Qorxmaz Hüseynov vaxtilə ARDNŞ-də Sosial İnkişaf İdarəsinin rəisi, daha sonra ARDNŞ-in vitse-prezidenti olub. O, 2011-ci il fevralın 17-də «Azərsu» ASC-yə rəhbər təyin olunub. Ondan əvvəl bu vəzifədə Nizaməddin Rzayev idi. Rzayevin vəzifədə olduğu dövrdə yerli media həmin qurumda korrupsiya hallarından bəhs etsə də, onun işdən çıxarılmasına heç bir rəsmi səbəb göstərilməmişdi. Nizaməddin Rzayevdən əvvəl isə quruma hazırda parlamentin sədri olan Oqtay Əsədov rəhbərlik edirdi.

Niyə dövlət əhəmiyyətli strateji layihələr heç bir təcrübəsi olmayan, ofisi bəlli olmayan sirli şirkətlərə həvalə edilir? Bəlkə bu şirkətlərin sahibləri fitri istedada, xüsusi danışıqlar texnikasına malik iş adamlarıdır?

***(davamı 10-cu səhifədə)***

# «Azərsu» prezidentinin qohumları su biznesindən necə qazanır?

*(əvvəli 9-cu səhifədə)*

Yoxsa «Azərsu» rəhbərliyini inandıra biliblər ki, ən sərfəli işi məhz onların şirkəti icra edə bilər? Bizim araşdırmalar göstərir ki, Bakı və qəsəbələrinin su təchizatı və kanalizasiya sisteminin yaxşılaşdırılmasına cəlb olunan şirkətlərin bəziləri «Azərsu» prezidenti Qorxmaz Hüseynovun yaxın qohumlarına məxsusdur.

**PREZİDENTİN QAYINI VƏ...**

«Sənaye Tikinti-M» MMC-nin təsisçisi Məhəmməd Cavanşir oğlu Hüseynovdur. Eyni adlı-soyadlı şəxs Qorxmaz Cavanşir oğlu Hüseynovun qardaşları ilə eyni qeydiyyat ünvanını bölüşür. Bu MMC «Azərsu» üçün 1,5 mln. manata Korgöz qəsəbəsinə su xətti çəkib.

«Hidro-İnşaat Servis» MMC isə 2011-ci ildə Qorxmaz Hüseynovun qayını Cəbrayılov Namiq Cidalı oğlu tərəfindən təsis olunub. Bu MMC ötən il aprelin 15-də qeydiyyatdan keçib və cəmi bir neçə ay sonra «Azərsu»nun layihələrinə cəlb olunub. «Azərsu» prezidentinin qayınının cəlb olunduğu başqa bir şirkət isə «Hidro-Lotus» MMC-dir. «Hidro-Lotus» MMC, «Hidro-İnşaat Servis» MMC yaradılandan 3 ay sonra - 2011-ci il iyulun 26-da qeydiyyatdan keçib. «Hidro-Lotus» MMC-nin 70 faizi «Hidro-İnşaat Servis»ə, 30 faizi isə Türkiyənin «Lotus Müteahhitlik Planlama İnşaat Mühendislik Enerji Madencilik Ve Taşimacilik Anonim Şirketi»nə (qısaca «Lotus») məxsusdur.

Ceyranbatan ultrasüzgəcli sutəmizləyici qurğunun layihəsi və tikintisi üçün 5 milyon manatlıq layihə məhz «Hidro-Lotus» MMC-yə tapşırılıb.Namiq Cəbrayılov bu şirkətlərin yalnız təsisçisi olduğunu, gördükləri işlər barədə məlumat verə bilməyəcəyini deyir.

**«SÜZGƏC» METODU**

İqtisadçı Natiq Cəfərli layihələrin qohumların rəhbərlik etdiyi şirkətlərə verilməsini «feodalizm qaydası», əsl korrupsiya faktı sayır. Çünki Azərbaycan qanunvericiliyi iqtisadiyyatda qohumbazlığı qadağan edir və bu, bir neçə qanunla tənzimlənir: «Bütün sahələrdə belədir. Yaradılan MMC-lər məhz ortada süzgəc rolunu oynayır – gələn pulun bir


Natiq Cəfərli

hissəsi orda yatır, qalan hissəsi başqa subpodratçılara veriləndə də, həmin pulun bir hissəsi də «otkat» şəklində geri alınır. Çox primitiv olsa da, illərlə işləyən bir sistem, struktur qurublar».

«Azərsu»nun sözçüsü Anar Cəbrayıllı isə şirkətin layihələri rəhbərliyin qohumlarına aid şirkətlərə verilməsinə dair məlumatların həqiqətəuyğun olmadığını deyir, onları «dedi-qodu», «şayiə» adlandırır. «Azərsu»nun əvvəlki rəhbərliyi dövründə işlədiyi bəzi şirkətləri də eyni hüquqi ünvan, eyni təsisçinin birləşdirdiyini müşahidə etdik. Natiq Cəfərli deyir ki, bəzi hallarda konkret layihələr üçün yaradılmış şirkətlərin ömrü bir ildən artıq çəkmir. Şirkətin bağlandığı elan olunur, sonradan onun barəsindəki sənədlər də məhv edilir. Beləliklə, bütün izlər itir. İqtisadçı xarici şirkətlərlə işbirliyini xaricə pulun çıxarılması üçün Milli Bankın icazəsinin lazım olmaması ilə izah edir: «Çox böyük məbləğləri asanlıqla çıxara bilirlər».

<u>TÜRK İŞ ADAMI:</u> **«PULLAR UÇUB GEDİR»**

Su-kanalizasiya sektorunda işləmiş türk iş adamlarından biri korrupsiya sxemini açıqlayır: «Orada aldığınız pul sizə qalmır, sağa-sola verməlisən. Bizim dediyimiz qiymətin üzərinə bir neçə dəfə çox qiymət yazırdılar. Bir az sənə


Ridvan Köse

iş gördürürlər, pullar uçub gedirdi». 2009-2010-cu illərdə, «Azərsu»nun keçmiş rəhbərliyi dövründə Bakının kanalizasiya xətlərinin açılmadan çirkab sularından təmizlənməsinə cəlb olunmuş Türkiyənin «Kanalize İnşaat» şirkətinin rəhbəri Ridvan Köse belə deyir.

**KAĞIZ ÜZƏRİNDƏ MİLYONLAR DÖVRİYYƏSİ**

Ridvan Köse Bakıda qatıldığı 2 layihənin hər birinə bir milyon manatdan çox pul ayrıldığını, ancaq bu məbləğin kağız üzərində qaldığını deyir: «Nə məni işlətdilər, nə pulumu verdilər».

O, həmçinin «Azərsu»nun indiki rəhbərliyinin daha çox iş görmək, texnologiya almaq istədiyini, Türkiyədən məsləhətçi kadrlar da dəvət etdiyini qeyd edir. Yerli iqtisadçılar da problemin həllini, Azərbaycanda da bir çox xarici ölkələrdə olduğu kimi, kommunal sahənin özəl şirkətlərin idarəsinə verilməsində görürlər.


Şüvəlan qəsəbəsinin küçələri

**BAKI İLƏ KİŞİNYOVUN FƏRQİ**

Təkcə ötən il «Azərsu» ASC-yə dövlət büdcəsindən 500 milyon manat ayrılıb. 87 milyon manat da «2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı» çərçivəsində ayrılan vəsaitdir. Moldovanın paytaxtı Kişinyovda isə ötən il kanalizasiya sisteminin 1.85 km-nin təmirinə 2.1 milyon lei (178000 dollar) sərf olunub. Sistemin 160 km-i təmir olunmalıdır, bunun üçün də minimum 315 milyon lei (26.68 milyon dollar) lazımdır.

«Azərsu» ASC-nin rəhbəri Qorxmaz Hüseynov isə ötən ilin sonlarında yerli mediaya bildirib ki, Bakının ətraf qəsəbələrinin su və kanalizasiya sisteminin yenidən qurulmasına təqribən 1.5 mlrd. manat tələb olunur.

***Arifə Kazımova***

# İsa Qəmbər: «Qara siyahı»ya jurnalistləri öldürənlər salınmalıdır»


Əli Kərimli və İsa Qəmbər

**«MƏTBUATA GƏLƏN ÇİRKLİ PULLAR AZI 200 MİLYONDUR»**

«2005-ci ildən Azərbaycan mətbuatına ayrılan çirkli pulların sayı-hesabı bilinmir. Azı 200 milyon manatdır». «Turan» İnformasiya Agentliyinin redaktoru Mehman Əliyev İctimai Palatanın keçirdiyi dəyirmi masada belə deyib. Dəyirmi masada mətbuatın problemləri müzakirə edilib.

Mehman Əliyev: «Mən elə-belə hesabladım. Bizdə hardasa 120 çap mətbu orqan var. Gündəlik, həftəlik və ya həftədə 2-3 dəfə çıxan. Ən aşağısı 20-40 milyon manat zərflərdə, gizli, Azərbaycan xalqının qanı-təri ilə formalaşan pul həmin mətbu orqanlara gedir. Hakimiyyət çox ciddi şəkildə çirkli pullarla mətbuatı ələ alır. 2005-ci ildə Elmar Hüseynov öləndən sonra hakimiyyət bu məsələni ortaya çıxartdı ki, jurnalistlərə ev tikək. Mən o zamanda buna etiraz etdim. Jurnalistə elə şərait yaradılsın ki, hamı kimi o da ev ala bilsin. Demək ipi boynuna keçirib əlində saxlamaq istəyirsən? 2005-ci ildən sonra Azərbaycan mətbuatına gələn çirkli pulların sayı- hesabı bilinmir. 2005-dən bu yana ən azı 200 milyona yaxın pul xərclənib».

Mehman Əliyev qəzetlərin yayımı ilə bağlı vəziyyətin pisləşdiyini də bildirib. Hətta o «bu axırıncı məqamdır, reklam bazarını məhv ediblər, gəlir yoxdur» deyib. O sonra da bunları əlavə edib: «Dünyada belədir ki, 1 köşkə 2 min adam düşür və ya 1 köşkə 1000 adam düşür. Azərbaycanda 2009-cu ildə hesabladıq - o vaxtdan vəziyyət bir az da pisləşib – 1 köşkə 12 min adam düşürdü. Biz hansı inkişafdan danışa bilərik. Bu gün 12 min adama 1 köşk düşür».

**«BUNU HAKİMİYYƏTİN MEDİAYA QARŞI TƏZYİQİ KİMİ QİYMƏTLƏNDİRMƏK OLMAZ»**

İctimai Palatanın müzakirələrində Mətbuat Şurasının İdarə Heyətinin üzvü Müşfiq Ələsgərli də çıxış edib. O deyib ki, Mətbuat Şurasında qəzet yayımı məsələsinin həllinə çalışan komissiya yaradılıb və yayım firmaları ilə, dövlət qurumları ilə danışıqlar aparılır. Amma o, baş verənləri hakimiyyətin mediaya təzyiqi kimi qiymətləndirməyin tərəfdarı olmayıb. Müşfiq Ələsgərli çoxsaylı sualları da cavablandırmalı olub. Suallardan biri belə olub: ««Xural» qəzetinin redaktoru Əvəz Zeynallının həbsi onun adının Mətbuat Şurasının «qara siyahı»ya salınmasının nəticəsi deyildi?»

Müşfiq Ələsgərli cavab verib ki, Əvəz Zeynallının adının Mətbuat Şurasının qara siyahısına salınması siyasi sifariş deyil: «Qara siyahı beynəlxalq termindir. Böyük Britaniyada da istifadə olunur. Ora qanunu kobud şəkildə pozan və bunu etiraf etməyən qəzetçilərin adları daxil olur», - deyə əlavə edib.

**«JURNALİSTLƏRİ «QARA SİYAHI»YA SALMAQ KÖMƏK ETMƏYƏCƏK»**

Müsavat Partiyasının başqanı İsa Qəmbər də «qara siyahı» məsələsi haqda danışmalı olub: «Qara siyahı varsa, ora mətbuata, söz azadlığına qarşı olan adamlar daxil edilməlidir. Jurnalistləri öldürən, onların ölümünü sifariş edənlər daxil edilməlidir. Jurnalistləri döyən, təqib edən, problem yaradan qurumlar daxil edilməlidir. Onlarla bağlı iddia çıxaran prokurorlar, onlara hökm kəsən məhkəmələr «qara siyahı»ya salınmalıdır. Özü də bu, birbaşa Media Şurasının işi olmalıdır. Qəzetləri və ya jurnalistləri «qara siyahı»ya salmaq kömək etməyəcək».

# Rəsmilər: Fransanı Minsk Qrupundan çıxarmaq mümkün deyil

*Rəsmi Bakının təmsilçiləri Fransanın ATƏT-in Minsk Qrupundan çıxarılmayacağını bəyan ediblər. Prezident Administrasiyasının beynəlxalq əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov Türkiyənin «Haberturk.com» saytına deyib ki, «erməni soyqırımı» haqqında qanunla əlaqədar Azərbaycan Fransaya Türkiyədən də çox etiraz edib: «Amma Fransanın ATƏT-in Minsk Qrupundan çıxarılması praktik olaraq mümkün deyil. Biz istəsək də, bu, mümkün deyil, çünki konsensus lazımdır. Türkiyə bizə deyir ki, Fransa mənim düşmənimdir, siz də əlaqələrinizi kəsin. Bir düşünün ki, Azərbaycan Fransaya müharibə elan etmiş olsa, Türkiyə kimin yanında yer alacaq? Çox təəssüflər ki, bəllidir. Çünki məlum anlaşmalar var, NATO var».*

Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov isə «Haberturk.com»a deyib ki, Fransa ilə yaşanan son gərginliyə görə Azərbaycan bütün Fransa xalqı ilə əlaqələri poza bilməz: «Onsuz da qanuna səs verən 127 senator pulla satın alınıblar. Onların Fransa xalqının iradəsini təmsil etməsi mümkün deyil».

«Haberturk.com»a danışan Xarici İşlər nazirinin müavini Xələf Xələfov isə bildirib ki, Dağlıq Qarabağ münaqişəsi


Novruz Məmmədov

Azərbaycanın ən böyük problemidir. Onun fikrincə, münaqişənin həlli prosesində Minsk Qrupunun böyük önəmi var: «Fransanın qəbul etdiyi qanunla Minsk Qrupunun əlaqələndirilməsi bu prosesə müsbət təsir göstərə bilməz».

**MediaForum**

# Stratfor: "Rusiya kəşfiyyatının Azərbaycanda geniş şəbəkəsi var"


İlham Əliyev STRATFOR-un sahibi George Friedmanla

**2012-ci ildə Rusiyanın Cənubi Qafqazda hansı fəallığı gözlənilir və buna Ermənistan, Gürcüstan və Azərbaycan necə cavab verəcək? Stratforun yeni araşdırması bu barədədir.**

**ERMƏNİSTAN**

İran, Türkiyə, Gürcüstan və Azərbaycanla sərhəd olan Ermənistan Rusiyaya Qafqazda "strateji ayaqyeri" verir.

**Rusiyanın təsir vasitələri**

Siyasi: Rusiya Ermənistan prezidenti Serj Sarkisyanı dəstəkləyir, onunla tərəfdaşdır, eyni zamanda keçmiş prezidentlər Ter-Petrosyan və Koçaryanla yaxşı əlaqələri var.

Sosial: Rusiyada 1 milyon 500 mindən 2 milyon 500 minə kimi erməni yaşayır.

Bundan başqa, Ermənistan əksəriyyəti müsəlman olan Qafqazda Ortodoks Xristianlıq dayağıdır.

İqtisadi: Ermənistanda kəmərlərin, dəmiryollarının, enerjinin, telekommunikasiyaların çoxunu Rusiya alıb. Rusiyada işləyən ermənilərin Ermənistana göndərdiyi pul Ermənistanın daxili məhsulunun 10 faizidir.

**Rusiyanın uğurları, çətinlikləri və ambisiyaları**

Son iki ildə Rusiya Ermənistanda hərbi mövcudluğunu gücləndirib. Hərbi obyektlərin icarəsi 2044-cü ilə kimi uzadıldı. Rusiya öz qoşunlarının Ermənistanda sərbəst hərəkətinə icazə aldı. Rusiya həmçinin Ermənistanla Türkiyənin münasbətlərinin normallaşması ilə manipulyasiya edərək özünün Azərbaycanla və Ermənistanla münasibətlərini gücləndirdi.

2012-ci ildə Rusiyanın Ermənistanda məqsədləri indiki təsir vasitələrini əlində saxlamaq və Ermənistanı Vahid İqtisadi Məkana və Avrasiya Birliyinə inteqrasiyaya hazırlamaqdır. Moskva həmçinin Yerevanla Bakı arasında bölünməni, fikir ayrılıqlarını saxlamaq istəyir.

**Ermənistanın mövqeyi və strategiyası**

Çətin coğrafi və etnik mühitdə olan Ermənistan özünü müdafiə etmək üçün həm daxili konsolidasiyaya, birliyə nail olmalıdır, həm də xaricdə özünə himayəçi tapmalıdır ki, onu xarici böyük qüvvələrdən müdafiə etsin. Ermənistan Rusiyanı özünə belə patron, himayəçi seçib. Başqa xarici böyük qüvvələrin Ermənistana təsiri azdır. ABŞ-da və Fransada əhəmiyyətli erməni diasporu yaşayır, ancaq onların Ermənistana təsiri siyasidən çox, iqtisadidir.

Ermənistan Rusiyanın orbitində möhkəm dayanıb. Ermənistan Moskvaya loyal olmaqda davam edəcək və Moskvanın regiondakı səylərində iştirak edəcək.

**AZƏRBAYCAN**

Azərbaycan cənub dəhlizinin vacib hissəsidir. Bu dəhliz Rusiyanın enerji və ticarət sahəsində əhəmiyyətini laxlada bilər.

**Rusiyanın təsir vasitələri**

Siyasi: Rusiya Dağlıq Qarabağ mübahisəsinə görə Azərbaycanla Ermənistan arasındakı danışıqlar prosesində dominant rol oynayır. Moskvanın Yerevanla müqayisədə Bakı ilə güclü siyasi əlaqələri yoxdur. Ancaq Moskvanın Dağlıq Qarabağın siyasi və təhlükəsizlik elitası ilə güclü bağlılığı var.

Sosial: Rusiyanın Azərbaycanla etnik və ya sosial bağlılığı yoxdur.

Təhlükəsizlik: Rusiya Azərbaycanda Qəbələ radar stansiyasını işlədir. Rusiya kəşfiyyatının Azərbaycanda geniş şəbəkəsi var.

İqtisadiyyat: Rusiya Azərbaycanın enerji ehtiyatlarına nəzarət edə bilmir. Ancaq təklif edir ki, Azərbaycanın bütün qazını alsın. Rusiyada işləyən azərbaycanlılar evlərinə pul göndərir, ancaq bu pulun daxili məhsulda payı azdır.

**Rusiyanın uğurları, çətinlikləri və ambisiyaları**

2010-cu ildən Rusiya ona rəqib olan "Nabucco", "Türkiyə-Yunanıstan-İtaliya" kimi enerji layihələrində Azərbaycanın irəliləməsini məhdudlaşdıra bilib. Ancaq Azərbaycan öz enerji resurslarının yalnız bir hissəsini Rusiyaya satıb və Azərbaycan digər ölkələrə öz ixraclarını artırmaqda davam edir və cənub dəhlizinin digər layihələrində iştirakını artırır. Rusiyanın Azərbaycanda məqsədi Azərbaycanla Türkiyənin enerji və təhlükəsizlik sahəsində daha sıx münasibətlərinin qabağını almaqdır. Rusiya həmçinin kəmərlər məsələsinin bəhrəsiz olmasına çalışır.

**Azərbaycanın mövqeyi və strategiyası**

Ermənistan və Gürcüstan kimi Azərbaycan daxildə konsolidasiya etməlidir, birləşməlidir. Azərbaycan mərkəzləşmiş hakimiyyət və təhlükəsizlik aparatı vasitəsilə birləşir. Ancaq Ermənistan tərəfindən dəstəklənən və Rusiyanın hərbi təminatı verilən Dağlıq Qarabağ Azərbaycanın suverenliyini pozur.

Ermənistan və Gürcüstandan fərqli olaraq güclər arasında tarazlıq yaratmaqda isə Azərbaycanın uğurları var. Azərbaycan Cənubi Qafqazda yeganə ölkədir ki, burda xarici qoşunlar yoxdur. Azərbaycan öz enerji resurslarını öz bildiyi kimi istifadə edir. Azərbaycan öz enerjisini bütün istiqamətlərdə- Rusiya, Türkiyə, Gürcüstan istiqamətində satır.

Təhlükəsizlik məsələsində Azərbaycan bilir ki, Ermənistanı müdafiə edən Rusiyaya və ya İrana istiqamətlənə bilməz. Buna görə hərbidə və silah sazişlərində Azərbaycan Türkiyə ilə əməkdaşlıq edir, ancaq onu da anlayır ki, bu, Rusiya qabağında kifayət deyil. Ona görə Azərbaycan Ankaradan da məsafə saxlayır. Bakı çox ehtiyatlı davranır, hərçənd Dağlıq Qarabağı geri qaytarmaq ritorikası var. Azərbaycan diqqətini enerji sektorunu qurmaqda və enerji gəlirləri əsasında hərbi qüdrətini və iqtisadiyyatını yaratmaqda cəmləyib. Azərbaycan öz suverenliyini Rusiyadan qorumaqda enerjidən və kəmərlərdən istifadə etməkdə davam edəcək.

Azərbaycan 2012-ci ildə bu strategiyasına nail ola biləcək. Rusiyanın Azərbaycanın enerji imkanlarını laxlatmaq cəhdlərinə baxmayaraq, Azərbaycan Cənubi Qafqazda Rusiyanın nüfuz edə biləcəyi ən çətin ölkədir. Hərçənd Bakının bundan sığortası yoxdur.

**Hesabatın Gürcüstana aid hissəsini AzadliqRadiosu.az saytından oxumaq olar.**

***Elxan Nəsibli***

# Əməkdar artist Ədilə Əflaki: "Somali bizim evimizdədir"


Ədilə Əflaki

**Ötən həftə ölkə mediasında Dövlət Muğam Teatrında ixtisarlar olacağı, hətta teatrın direktoru Arif Qazıyevin yaşla bağlı işdən uzaqlaşdırılacağı barədə xəbər yayıldı. Teatrın işçisi əməkdar artist Ədilə Əflakiyə telefon açıb son durumla maraqlandıq.**

**- Ədilə xanım, sizinlə son söhbətdən 5-10 gün keçdi. Bu müddətdə nələr dəyişib teatrda?**

- Dedikləri söz elə də qalıb. Texniki işçilər və solistlərdən ibarət 35 nəfər ixtisara salınıb. Bunun bizə xeyri var. Lazımsız müğənnilər, sənətlə məşğul olmayanlar, passiv sənətkarlar işdən kənarlaşdırılacaq.

**- Teatrda beləlləri çoxdurmu?**

- Var. İşə davamlı gəlmirlər. Çoxusu da gəncdir. Özləri də deyirlər ki, həvəsimiz yoxdur işləməyə. Ən maraqlısı, bunlar tam ştatda maaş alanlardır. Özü də bunlar xüsusi maraq güdülərək işə götürülənlərdir.

**XALQIN SƏNƏTKARI NECƏ YAŞAMALIDIR?**

**- Niyə işləməyə həvəsləri yoxdur? Bəlkə maaşın azlığındandır?**

- Dünyada olmayan şey bizim başımıza gəlir. Harada görünüb ki, işləyəsən, amma aylıq məvacib almayasan? Mən özüm 42 ildir bu səhnənin fədaisiyəm, amma 60-70 manat məvacib alıram. O maaş heç gəlib mənim evimə çatmır. Alan kimi kommunal borclarımı ödəyirəm, çox vaxt borclu qalıram. Yəni verdiyi pulu yenə dövlətin büdcəsinə qaytarıram. Sual edirəm: Xalqın sənətkarı necə yaşamalıdır? Adı varlı ölkələr siyahısında gedən Azərbaycanın sənətkarı, 42 il səhnəyə xidmət edən, cəbhə bölgələrinə səfər edən, öz övladlarını qurban verən ana, adı "N" saylı hərbi arxivə həkk olunan Ədilə Əflaki-Nəzərli bu yaşayışı nədən yaşamalıdır?

**50 MANAT VERSƏLƏR, OXUYARAM**

**- Ədilə xanım, toylara getmirsinizmi?**

- Yox, getmirəm. Bütün şadlıq evlərini gəzmişəm. Heç kəs yaxın durmur. Çünki cavanlar gedib 30 manata oxuyurlar. Mənə heç olmasa, 50 manat versələr, oxuyaram. Axı 20 manat bunun taksi puludur. Gözəllik salonunu hələ bir yana qoyuram. Gərək 30 manat evə gətirim də. Amma mənim kimi müğənnilər şadlıq evlərinin marağında deyil. Burada monopoliya məsələsi var. Şadlıq evinin müdiri ancaq öz əyalətindən olan musiqiçiləri ora yığır.

**- Bəs dövlətin sizə necə diqqət göstərməsini istərdiniz?**

- Heç olmasa, sənətdə izi olan xanəndələr, müğənnilər arasında ayrı-seçkilik etməsinlər. Prezident mükafatı var. Bunları bizə də aid etsinlər.

**- Heç istəmisinizmi prezident mükafatı?**

- Prezident mükafatı üçün nə qədər məktub yazmışam?! Məktublarımdan roman yazmaq olar...

**SOMALİ BİZİM EVİMİZDƏDİR**

**- Hara yazmısınız?**

- Prezident Administrasiyasına. Son məktubum Nazirlər Kabinetinə idi. Mükafat bir yana, tam ştata keçmək üçün dəridən-qabıqdan çıxıram. Nazirlər Kabineti cavab yazdı ki, "hələ bunu edə bilmərik, teatrda ixtisar gedəcək, ora bina veriləcək". Qarşıda da "Eurovision" var. Sonra yay tətili başlayacaq. Sentyabrda işə çıxacağıq. İşə baxılanacan gəlib olacaq oktyabr. Maaşı alana kimi olacaq noyabr. Bəs mən ilin axırınacan nə yeməliyəm? Əlimi nə ilə yumalıyam? Mən əl-üz sabunu tapa bilmirəm ki, xəstə oğlumun əl-ayağını yuyum. Biz Azərbaycanın Ginnesin Rekordlar Kitabına düşəsi ən müflis vətəndaşları olmuşuq. Axı bu qədər olmaz? Somali bizim evimizdədir. Hal-hazırda Somalidəki kimi yaşayırıq. Mənim başımda gözəl layihələr var, amma heç birini həyata keçirə bilmirəm. Təkcə mən bu halda deyiləm. Teatrda gözəl səsi olan xanəndələrimiz var, hamısı bu gündədir.

**"ULU ÖNDƏRİN DOĞUM GÜNÜNDƏ"...**

**- Bəs siz?**

- Mən qalıram teatrda. Hələlik 70 manat maaşla. Bütöv ştata keçməyim, dediyim kimi, oktyabra çəkər... Onu da söz veriblər ki, may ayında ulu öndərimizin anım günündə mükafat veriləcək. Nə dərəcədə doğrudur-yalandır- bilmirəm. 3-4 ildir mənə bu deyilir, amma həyata keçmir.

***Sevda İsmayıllı***

# «Sənsizləmişəm»i ruscaya çevir görüm, necə çevirirsən?

## Günün gülməcəsi

***(Azərbaycan dili müəllimim, professor Ziynət xanım Əlizadənin ruhuna sayğılarla)***

Bu əhvalat ötən əsrin 70-ci illərində Bakıda baş verib. Bir dəfə universitetdə ana dilimizdən dərs deyən Ziynət xanıma öz evində öz oğlu elə bir söz deyir ki, dilçi xanımı od götürür. Bir az əvvələ qaçıb söyləyim ki, Ziynət xanım rus dilinin nəinki Bakını, hətta Azərbaycanı basıb-qovurduğu o illərdə oğlunu Azərbaycan bölməsində oxudurmuş. Şəhərin düz göbəyində-Hüsü Hacıyev küçəsində yaşayan, üstəlik, çox istedadlı oğul təbii ki, rus dilini də gözəl mənimsəyibmiş. Odur ki, söhbətlərin birində bəlkə də dilçi anasını hirsləndirmək üçün oğul rus dilinin Azərbaycan türkcəsindən daha zəngin olduğunu dilinə gətirir.

Ana etiraz edir, dərs dediyi dilin müdafiəsinə qalxır. Heç bir köməyi olmur. Axırda hirslənib deyir: Onda "sənsizləmişəm" sözünü ruscaya tərcümə elə görüm, necə eləyirsən?!

Oğul ha fikirləşir, anaya cavab verə bilmir...

***Sevda İsmayıllı***

# Xristian və müsəlman ailəsində uşaqlar səhv düşüb

**Rusiyada məhkəmə pravoslav və müsəlman ailələrinin uşaqlarının xəstəxanada səhv salınması ilə bağlı işə baxır. Bu səhvin ucbatından hazırda pravoslav ailənin qızı tacik valideynlər tərəfindən böyüdülür. Əvəzində müsəlman qız isə rus ata-anasının yanında qalır. Qızların hər ikisi eyni vaxtda eyni xəstəxanada - 1998-ci ilin dekabrında Ural vilayətinin Kopeysk şəhərindəki doğum evində dünyaya göz açıblar. Düz 12 il həkimlərin xətasından bixəbər valideynlər özgə qızlarını özlərinki kimi böyüdüblər.**

**QIZLAR BÖYÜDÜKLƏRİ AİLƏNİ DƏYİŞMƏK İSTƏMİR**

Lakin uşaqlar böyüdükcə, valideynlər şübhələnməyə başlayıb. Belyayevlər boşanandan sonra ata qızı Anya üçün aliment verməkdən imtina dib. O, qızın qarabəniz olduğunu, özünə qətiyyən bənzəmədiyini əsas gətirərək Anyanın atası olmadığını iddia edib. DNT testi atanın sözlərini təsdiqləyib – Anya heç bir valideyninin genini daşımırmış.

Polis işə qarışandan sonra Belyayevlər öz biloji qızlarını eyni şəhərdə yaşayan İsgəndərovların ailəsində tapıblar. Onların qızı İrina həmişə ağbənizliyi ilə seçilirmiş. Məlum olub ki, həkimlər doğum evində uşaqları səhv salıblar. Məsələnin üstü açılandan sonra qızlar böyüdükləri ailənin yanında qalmaq istədiklərini



**Sağdan-sola: Anna İsgəndərova atası Nemətlə, İrina anası Yuliya Belyayeva ilə**

bildiriblər. Amma indi Yuliya Belyayeva öz biolji qızına sahib çıxmaq istəyir. Deyir ki, o, qızı Anyanın müsəlman adətlərinə uyğun böyüdülməsindən narahatdır.

**QIZIMIZIN MİNİ GEYİNİB OĞLANLA GƏZMƏSİNƏ İCAZƏ VERMİRİK**

Nemət İsgəndərov isə rus qadının istəyi ilə razılaşmır. Deyir ki, hər iki ailənin özünəməxsus adət-ənənələri var: "Bizim uşaqlar tez-tez kinoya getmir, internetdə çox vaxt keçirmirlər. Biz qızlarımızı mini ətək geyməsinə, oğlanlarla oynamasına icazə vermirik. Görünür, Belyayeva qızımızın diskotekaya getmədiyindən, oğlanla gəzmədiyindən narahatdır".

Hər iki ailə yerli xəstəxana rəhbərliyini məhkəməyə verib və bu səhvə görə maddi təzminat tələb edib. Artıq məhkəmə hər bir ailəyə 3 milyon rubl kompensasiya verilməsinə dair qərar çıxarıb. Belyayevlər və İsgəndərovlar qərara alıblar ki, qonşu olsunlar və tez-tez bir-birilərinə baş çəksinlər.

# Daha zinakarları daşqalaq etməyəcəklər



*İran öz ölkəsinin Cinayət Məcəlləsinə dəyişiklik etmək istəyir. "The Daily Telegraph" yazır ki, hökumət ölüm hökmünün icra mexanizmini dəyişməyi planlaşdırır. İran parlamenti daş-qalaq yoluyla edam edilməsini və həddi-büluğa çatmayanların edamını ləğv etmək istəyir. Cinayət Məcəlləsinə dəyişikliklər artıq Konstitusiya Qoruyucuları Şurası tərəfindən dəstəklənib. Bu qurum yerli qanunların İslam hüququna uyğunlaşdırılmasına nəzarət edir.*

Qanun layihəsi prezident Mahmud Əhmədinejad tərəfindən imzalanandan sonra qüvvəyə minəcək. 1980-ci ildən etibarən İranda ən azı 99 nəfər daşqalaq edilərək öldürülüb. Bu edam növü əsasən zinada ittiham olunan qadın və kişilərə tətbiq olunur.

# Valentin Günü qadağan edilib

*Özbək sənətçilərinə Sevgililər Günündə konsert vermək qadağan edlib. Bu haqda bir neçə gün əvvəl onlara qeyri-rəsmi göstəriş verilib. Qərb ölkələrində əsl bayrama çevrilən Valentin Günü son vaxtlar əhalisinin əksəriyyəti müsəlman olan Özbəkistanda da qeyd olunur. Ölkə hakimiyyəti bu tendensiyanın güclənməsinin qarşısını almaq niyyətilə bu gün poeziya gecəsi təşkil edib. Paytaxtın ən böyük "İstiqlal" konsert sarayında əyləncəli proqramlar əvəzinə, orta əsrlərin dövlət xadimi, məşhur şair və filosof Baburun ad gününə həsr edilmiş konsert təşkil olunub.*

Hökumətin arqumenti bu idi ki, Valentin Günü qadını yoldan çıxaran xristian keşişin sevgi macəralarına həsr olunmuş qeyri-müsəlman bayramıdır. Elə həmin vaxtdan etibarən Valentin Günü bu ölkədə "qara siyahı"ya düşüb. Sevgililər Gününün əleyhdarları hesab edirlər ki, bu bayram insanları ehtiras və aludəçiliyə səsləyir.

# Azərbaycanda narkomanların sayı artır

**Azərbaycanda narkomanların sayı 2010-cu illə müqayisədə 2011-ci ildə 4.8 faiz artıb. Səhiyyə Nazirliyi Respublika Narkoloji Mərkəzinin direktor müavini Aytən Səmədova «Trend»ə deyib ki, yalnız 2011-ci ildə 1999 nəfər narkoman kimi qeydiyyata alınıb. Hazırda Azərbaycanda 26716 nəfər narkoman var. 2010-cu ildə isə bu rəqəm 25489 nəfər olub.**

Azərbaycanda qeydiyyata alınan narkomanların yalnız 511 nəfəri qadındır. Əvvəlki illərlə müqayisədə ölkədəki qadın narkomanların sayında elə ciddi dəyişiklik olmayıb. Narkomanlar arasında daha çox 40-59 yaş arası olan kişilər üstünlük təşkil edir. Ölkədə bu yaşda 12791 narkoman var. Narkomanların 4979 nəfəri isə 18-29 yaş arasında olan cavanlardır. Yaşı 18-dən az olan narkoman qeydə alınmayıb.

# Putin müttəhim kürsüsündə


"Youtube"də yayılmış videodan görüntü

**Kimsə öz arzusunu həyata keçirməyin yaradıcı yolunu tapıb. Arzu - Rusiya baş naziri Vladimir Putini müttəhimlər kürsüsündə görmək. Bu günlərdə «YouTube»da yeləşdirilən «Vladimir Putinin həbsi: Məhkəmə zalından reportaj» adlı video kosmik sürətlə sosial şəbəkələrdə və dünya mediasında yayılıb. 50 saniyəlik videoyaya artıq 3 milyondan çox adam baxıb, altında 20 mindən çox şərh yazılıb.**

Həqiqətən də, videonun saxta olmasına dəlalət edən heç bir görüntü qüsuru yoxdur. Sanki hər şey realdır. Rusiyanın birinci kanalının TV reportajında məhkəmə zalı göstərilir. Qaşqabaqlı Putin müttəhimlər üçün nəzərdə tutulan qəfəsin içindədir, hakimin prosedur suallarına cavab verir:

**- Soyadınız, adınız.**

- Vladimir Putin.

**- Milliyətiniz.**

- Rusiya Federasiyasının vətəndaşı.

Videoda müxbir xəbəri təqdim edərək deyir: «İndicə xəbər aldıq ki, 3 saat əvvəl keçmiş baş nazir Vladimir Putin xüsusi nəzarət altında Xamovni məhkəməsinə gətirilb. Hakim Viktor Danilkinin mətbuat katibi məsələyə bir qədər aydınlıq gətirərək bildirdi ki, bu gün məhkəmə hökmünün oxunuşuna başlanıb. Hələlik hökmün ancaq giriş hissəsi, keçmiş baş nazirə qarşı irəli sürülən ittihamların əsaslandırılması hissəsi oxunub. Bu ittihamlar arasında «külli miqdarda dövlət vəsaitinin mənimsənilməsi», «maliyyə fırıldaqları» və «vəzifədən sui-istifadə» maddələri var. Sabah hökmün ən başlıca maddəsinin əsaslandırılması oxunacaq, baş nazirə qarşı irəli sürülən 205-ci maddə əhalini qorxutmaq məqsədilə terror aktlarının təşkilini nəzərdə tutur».

Videonu hazırlayanlar, görünür, siyasi məsələlərə diqqət çəkmək istəyiblər. Putin əleyhdarları tez-tez Putinin hakimiyyətə gəlməsi ərəfəsində Moskvada və Rusiyanın digər şəhərlərində yaşayış binalarının partladılması dalğasını xatırladır, iddia edirlər ki, bu terror aktları Putinin hakmiyyətə gətirilməsi üçün xüsusi xidmətlər tərəfindən həyata keçirilmişdi.

Videoda daha bir eyham, Rusiyada son illərin ən səs-küylü siyasi prosesinə çevrilən, YUKOSun rəhbəri Mixail Xodorovskinin həbsinədir. Videoda adıçəkilən Viktor Daniloçkin Xodorkovskiyə hökm oxuyan hakimdir. Videonu YouTubeda 18 min adam şərh edib. Onlardan birində video müəlliflərinin namizədliyini videomontaj üzrə "Oskar" mükafatına təqdim olunması çağırışı da var.

# AzadlıqRadiosunda verilişlər:

| | |
|---|---|
| 8:00 | Qafqaz Qovşağı /Azadlıq Bölgələrdə / Kontekst / Şəffaflıq / Overtime |
| 9:00 | İz / Şəffaflıq / İşdən sonra |
| 10:05 | Qərb musiqisi |
| 11:00 | Xəbərlər |
| 11:05 | Qərb musiqisi |
| 12:00 | Xəbərlər |
| 12:05 | Qafqaz Qovşağı / Qaynar Xətt / Can Bakı / Iz / Şəffaflıq / 14-24 / Şəffaflıq / Azadlıq Bölgələrdə |
| 13:00 | Xəbərlər |
| 13:05 | Qərb musiqisi |
| 14:00 | Xəbərlər |
| 14:05 | Overtime / Kontekst / Qaynar Xətt / Can Bakı / Pen club / Overtime / Iz / Şəffaflıq |
| 15:00 | Xəbərlər |
| 15:05 | Qərb musiqisi / Qaynar Xətt / Can Bakı |
| 15:30 | Amerikanın Səsi / İz |
| 16:00 | Xəbərlər |
| 16:05 | Qərb musiqisi / İşdən sonra |
| 17:00 | Xəbərlər |
| 17:05 | İşdən sonra |
| 18:00 | Xəbərlər |
| 18:05 | İşdən sonra / Pen Klub |
| 19:00 | Qərb musiqisi |
| 20:00 | Xəbərlər |
| 20:05 | Kontekst / Azadlıq Bölgələrdə / Şəffaflıq / Qaynar Xətt / İslam və Demokratiya / 14-24 / İz |
| 20:30 | Amerikanın Səsi / Qafqaz Qovşağı / 14-24 |
| 21:00 | Qərb musiqisi |
| 22:00 | Xəbərlər |
| 22:05 | Kontekst / 14-24 / Şəffaflıq |
| 23:00 | Xəbərlər |
| 23:05 | Overtime / İşdən sonra / AzadlıqFM / Overtime |
| 00:00 - 8:00 | Amerikanın Səsi / Qərb musiqisi |

**Qeyd:** Kəsr xətti ilə verilmiş – eyni saatlara düşən verilişlər həftənin günlərindən asılı olaraq növbə ilə təkrar gedir...

# Simsiz teleqraf

## Küçədə Bəxtiyar Hacıyevlə bağlı trafaret


*17.02.2012. Yüklədi: Mr.Free*

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**

efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

## necə dinləməli...

24 saat

**Mobil telefonda canlı:**

İndi 3G, GPRS və ya Wi Fi-la
radiomuzu canlı dinləmək olur...
Ətraflı: **AzadliqRadiosu.az**-da

**Video və Fotolar**







**Qaynar Xətt:** **436-77-41**

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az

Azərbaycan Respublikası
Ədliyyə Nazirliyində
mətbu nəşrlərin reyestrinə
daxil edilib, №3080

**“Fərqli düşüncə” jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor:
Ş.A.Namazov

Bülleten redaksiyada
səhifələnib, “Qanun”
mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tbilisi
prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı,
F.Şahbazov küçəsi, 18
email: fdjurnal@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz